# AKADEMİK İSA HƏBİBBƏYLİNİN AZƏRBAYCAN ƏDƏBİYYATI TARİXİNİN DÖVRLƏŞDİRMƏ KONSEPSİYASI

*(Əvvəli ötən saylarımızda)*

Apardığı araşdırmalara əsasən İsa Həbibbəyli yazır: "Azərbaycan ədəbiyyatı tarixinin qədim dövrü şifahi xalq ədəbiyyatının ilkin nümunələrinin yarandığı çağlardan başlayan və yazılı ədəbiyyatın formalaşmağa başladığı VII əsrə qədərki dövrləri özündə birləşdirən böyük bir epoxadan ibarətdir. Azərbaycanda bu, böyük sivilizasiyanın başlanğıcı olan Nuh peyğəmbər əyyamından bizim eranın VII əsrinə qədərki dövrlərin şifahi söz sənəti nümunələrindən ibarət olan zəngin ədəbiyyat xəzinəsini əhatə edir. Bu mənada, ədəbiyyat tarixinin dövrləşdirilməsi baxımından "qədim dövr" anlayışı şərti olaraq hər bir xalqın şifahi ədəbiyyatının tarixinə dair real faktların nəzərə alınması ilə fərdi qaydada müəyyən edilməlidir".

Azərbaycan şifahi xalq ədəbiyyatının əsas janrlarının çoxunda qədim dövrə aid bədii nümunələr görən alim mərasim folkloru nümunələrinin də yazılı ədəbiyyatdan əvvəlki dövrlərdə yarandığını, günəşiçağırma, yaxud yağışyağdırma şeirlərinin "mifoloji düşüncənin qafiyələnmiş nümunələri" olub, təbiət hadisəsinə dair xalqın arzusu, istəyi və inamını ifadə etdiyini, "Səməni", "Kosa-Kosa" kimi mövsüm nəğmələrində də mifoloji baxışların olduğun bu, "ideya-məzmununa görə azhecalı xalq şeiri nümunələri qafiyələnmiş əsatirlər təəssüratı" yaratdığını söyləyir. İsa Həbibbəyli ilkin mifoloji mərhələdən sonra əfsanə və nağılların yarandığını, bütövlükdə əfsanə janrının "qədim əcdadlarımızın təbiət qüvvələri qarşısındakı sehirli düşüncələrinin bədii əksindən həyat hadisələrini dərk etmələrinə doğru keçidi" özündə əks etdirdiyini, əfsanənin həm də "bədii cəhətdən də təkmilləşmiş xalq nəsri nümunəsi" olduğunu, Azərbaycan folklorunda əfsanə janrı ilə epik üslub formalaşdığını, əfsanələrin həm də "mövzu və üslub etibarilə nağıl janrının da formalaşmasına" təkan verdiyini yazır.

Mifoloji təfəkkürlə, əfsanə və nağıl təhkiyəsi ilə xalq şeirinin sintezinin "qədim dövrlərdə Azərbaycanda epos sənətini" formalaşdırdığını bildirir: "Əsas xüsusiyyəti "boy boylamaq" (nağıl etmək) və "soy soylamaq" (vəsf, tərənnüm etmək, şeir söyləmək) olan Azərbaycan eposu qədim dövrdə özünün möhtəşəm ədəbi abidəsini - "Kitabi-Dədə Qorqud" dastanını meydana çıxarmışdır. Mifoloji mətnlərlə əfsanə və nağıl təhkiyəsinin qədim xalq şeiri örnəklərinin sintezi dastana keçid baxımından möhkəm mənəvi körpüdür". Akademik Kamal Abdullanın fikirlərini ("Kitabi-Dədə Qorqud" dastanının "quruluşunda həm ilkin, ibtidai, bizə tanış olmayan, yaxud az tanış olan bədii poetik elementlər və imkanlar, həm də bununla yanaşı, daha müasir, artıq ədəbi-bədii şüurumuza tanış olan klassik poetik nümunələr özünü göstərir".) dəstəkləyir. Dastanda mifoloji qatla məcazi qatlar arasındakı keçidin bir-birinə bağlılığını da qeyd edir və "bu isə "Kitabi-Dədə Qorqud"un bir dastan kimi mövzusu, ideyası və qəhrəmanları ilə bərabər, həm də mükəmməl bir bədii-poetik sistemə malik olduğunu göstərir. Ona görə də Azərbaycanda olduğu kimi, ümumtürk şifahi xalq ədəbiyyatı məkanında da mükəmməl epos nümunəsi olaraq "Kitabi-Dədə Qorqud" dastanı ən uca zirvədə dayanır. Eyni zamanda "Kitabi-Dədə Qorqud" dastanı dünya epos mədəniyyətinin də əfsanəsidir".

"Kitabi-Dədə Qorqud" dastanlarını "Azərbaycan epos sənətinin möhtəşəm abidəsi", "Azərbaycan-türk epos təfəkküründə "Alp Ər Tonqa", "Kül tigin", "Tonyukuk", "Oğuz kağan", "Göytürk", "Oğuznamə"lər kimi ortaq türk dastanlarından ümummilli bütövlüyə doğru inkişaf edən etnik-mədəni proseslərin möhtəşəm bir yekunu", etnik cəhətdən də, coğrafi baxımdan da "Kitabi-Dədə Qorqud" dastanının "ümumtürk xarakteri ilə yanaşı, daha çox Azərbaycan hadisəsi", "Azərbaycanda və bu coğrafiyaya yaxın ərazilərdə geniş yayılmış qədim oğuz tayfalarından olan Bayat boyunun mükəmməl bir oğuznaməsi", Dədə Qorqudu "Oğuz elinin rəmzi olan ümumiləşdirilmiş ob-raz" kimi xarakterizə edir. Ş.Cəmşidovun ("Kitabi-Dədə Qorqud". Bakı, "Elm", 1999), S.Babayevin (Naxçıvanda "Kitabi-Dədə Qorqud" toponimləri. Bakı, 1999.) istinadlarına diqqəti çəkir.

Milli dövlətçilik tariximiz üçün də "Kitabi-Dədə Qorqud" dastanlarını "qiymətli mənbə" bilir: "Dastan boylarında təqdim olunan Qalın Oğuz eli - oğuz tayfa birliklərini özündə cəmləşdirən, konkret inzibati-coğrafi məkanda mövcud olmuş Azərbaycan Oğuz dövləti deməkdir. Dastandakı Bayandur xan Qalın Oğuz elinin rəhbəri, Dədə Qorqud müdrik ağsaqqalı, Ulaş oğlu Salur Qazan xan - baş komandanı, Beyrək və Basat isə sərkərdələridir. Qaraca çoban - Oğuz tayfasının sadə adamlarının vətən və yurd sevgisinin, igidlik və basılmazlığının nümunəsidir. Bir sözlə, "Kitabi-Dədə Qorqud" eposu Azərbaycan türk etnosunun Ata kitabıdır".

"Kitabi-Dədə Qorqud" dastanını "ideya-bədii cəhətdən çox mükəmməl bir sənət nümunəsi" adlandıran İsa Həbibbəyli "kitaba çevrilənə qədərki mərhələdə xalq arasında gəzib-dolaşmış oğuznamə süjetləri, şifahi ədəbiyyat motivləri, bədii mətn, "kitab" kimi meydana çıxmış "Kitabi-Dədə Qorqud"u həm də "yazılı ədəbiyyat nümunəsi", tarixi şəxsiyyət olan Dədə Qorqudun "dastanın həm iştirakçısı, həm də yaradıcısı" olmasıyla bağlı fikirləri də diqqətə çəkir. Dünya ədəbiyyatında da bədii əsərin iştirakçısının həm də həmin əsərin müəllifi olduğu ilə bağlı yazılı ədəbiyyat nümunələrinin mövcud olduğunu, Homerin antik yunan ədəbiyyatının şedevri hesab olunan məşhur "İliada" və "Odisseya" dastanlarının "iştirakçısı" olmaqla bərabər, həm də yaradıcısı olması ümumdünya ədəbiyyatşünaslıq elmində qəbul olunmuş el-mi qənaət olduğu, "Azərbaycan ədəbiyyatında bədii əsərlərin aparıcı qəhrəmanının həmin əsərdə müəllif fikrinin əsas daşıyıcısı olduğu, rezenyor obraz funksiyasını həyata keçirdiyi haqqında kifayət qədər elmi mülahizələr" irəli sürüldüyünü yazır: "Məhəmməd Füzulinin "Leyli və Məcnun" poemasında Məcnunun, C.Məmmədquluzadənin "Ölülər" tragikomediyasında İskəndərin, Əli Vəliyevin "Budağın xatirələri" romanında Budağın müəllif fikrinin daşıyıcısı, hətta bəzən yazıçının həmin obrazların prototipi olması elmdə etiraf olunmuş həqiqətlərdir. Bu baxımdan Dədə Qorqudun da Ata kitabımızın həm də müəllifi olması dastanda ifadə olunan gerçəkliklərlə səsləşir".

Azərbaycanda bədii təfəkkürün formalaşmasında xalq ədəbiyyatı ilə yanaşı, Gəmiqaya-Qobustan qayaüstü rəsmlərinin də özünəməxsus rolunu vurğulayır. Tədqiqatçılardan Vəli Əliyev, Əbülfəz Hüseyni, Vəli Baxşəliyev, İsaq Cəfərquliyev, Əbülfəz Quliyev, Nəcəf Müseyibli və başqaları Gəmiqaya-Qobustan qayaüstü rəsmlərində türk yazı sisteminin izlərinin olmasıyla bağlı fikirlərini, dilçi-tədqiqatçı Əjdər Fərzəlinin Gəmiqaya-Qobustan mədəniyyətində yüzə yaxın piktoqrafik işarə əsasında 32 hərfdən - 23 samit və 9 sait səsdən ibarət olan fonetik əlifbanı müəyyən etməsini diqqətə çatdıran İsa Həbibbəylibu rəsmlərdəki "bir-birini tamamlayan qayaüstü mətnlər"i bir neçə nəhəng



abidənin hekayəti təsiri bağışladığını görür: "Deməli, Gəmiqaya-Qobustan abidələrini Azərbaycan ədəbiyyatının "Gilqamış" eposu adlandırmaq olar. Qədim şumerlər özlərinin bədii düşüncələrini gil lövhələr üzərində yazdıqları kimi, protoazərbaycanlılar da həyata və təbiət hadisələrinə münasibətlərini qayaüstü rəsmlərdə əks etdirmişlər. Gəmiqaya-Qobustan abidələri Orxon-Yenisey kitabələrinin sələfidir. Ümumtürk bədii təfəkkürü Gəmiqaya-Qobustandakı piktoqrafik işarələrdən Orxon-Yeniseydəki yazılı mətnlərədək böyük təkamül prosesi keçmişdir. Bu mənada Gəmiqaya-Qobustan qayaüstü rəsmləri Orxon-Yenisey yazılı mətnlərinin ibtidai forması, başlanğıc mərhələsidir. Ümumiyyətlə, Gəmiqaya-Qobustan qayaüstü rəsmlərini sistemləşdirmək, oxşar süjetlərə aid rəsmləri yan-yana düzüb bütövləşdirməklə möhtəşəm bir eposu formalaşdırmaq mümkündür. Heç cür ola bilməz ki, Gəmiqaya-Qobustan qayaüstü rəsmlərini, əlifbasını və piktoqrafik mətnlərini yaradan xalq özünün şifahi və yazılı bədii təfəkküründə iştirak etməmiş olsun".

Qobustan qayalarında Novruz bayramı mərasimlərini əks etdirən süjetləri, Novruz sözünün mənşəyinin Nuh peyğəmbərin adı və əfsanəvi səfəri ilə bağlı yarandığını irəli sürən, bu sözün "Nuh-ruz - Noy-ruz, Nou-ruz - Novruz" şəklində meydana çıxdığını göstərən versiyaları" (Bax.İsa Həbibbəyli. Nuhçıxandan-Naxçıvana. Bakı, Elm və təhsil, 2015, s.95-97), Qayaüstü mədəniyyətdəki bu motivlərin "qədim mifoloji mətnlərdə, bir qədər sonra isə digər şifahi xalq ədəbiyyatı nümunələrində də müxtəlif şəkillərdə" ifadə olunması, Gəmiqaya-Qobustan rəsmlərinin həm də bəşəriyyətin ilkin çağlarının ayin və mərasimlərini əks etdirən yazılı mətnlər olduğunu söyləməyə əsas verən detalları da yada salan alim "Gəmiqaya-Qobustan mədəniyyəti onu yaradan etnosun daş kitabəsi, belə demək mümkünsə, daşlaşmış eposudur. İnanırıq ki, nə vaxtsa həmin qaya parçalarındakı təsvirləri yan-yana düzüb birləşdirməklə mətnləri uzlaşdırıb "Gəmiqaya-Qobustan" eposunu oxumaq mümkün olacaqdır" - inamını ifadə edir.

Azərbayan şifahi xalq ədəbiyyatının bir sıra ortaq nümunələrinin də olduğunu qeyd edən İsa Həbibbəyli qədim yunan alimi Herodotun "Tarix" kitabında verilmiş Şərqdən toplanılmış "Tomris" və "Astiaq" əsatirlərində öz əksini tapmış türk mifoloji düşüncəsi mənşə etibarilə Azərbaycan əsatiri baxışlarındakı motivlərlə eynilik təşkil etdiyi fikrindədir: "Elmi ədəbiyyatlarda bu əsatirlərdə Azərbaycan şifahi xalq ədəbiyyatı nümunəsi kimi bəhs edilir. Bundan başqa, qədim şumerlərə məxsus məşhur "Bilqamıs" dastanından da ortaq folklor abidəsi kimi söz açılır".

İsa Həbibbəylinin bu mənada fikrini qüvvətləndirən filologiya elmləri doktoru, professor Elməddin Əlibəyzadənin geniş elmi araşdırmaları məlumdur.

Qədim dövr Azərbaycan ədəbiyyatını "şifahi xalq ədəbiyyatımızın yaranıb formalaşması, təkmilləşməsi, sistemləşməsi və ilkin inkişafı dövrünün ədəbiyyatı" kimi xarakterizə edən İ.Həbibbəyli "bu mərhələdə Azərbaycan şifahi xalq ədəbiyyatının əsas janrları" yaranıb formalaşdığını, "qədim dövrdə xalq yaradıcılığının timsalında, ümumiyyətlə, bədii düşüncə mənasında ədəbiyyat anlayışı"nın özünü tamamilə təsdiq etdiyini, bu dövrün "Azərbaycan xalqının yazıyaqədərki zəngin şifahi ədəbiyyatını" özündə cəmləşdirdiyini bildirir. İsa Həbibbəyli "Ədəbiyyat tarixinin bu mərhələsi"nin Azərbaycan yazılı ədəbiyyatına giriş funksiyasını yerinə yetirdiyini və bir növ, böyük ədəbiyyatın bədii müqəddiməsi xarakteri daşıdığını söyləyir.

* * *

İsa Həbibbəyli Azərbaycan ədəbiyyatı tarixinin İkinci mərhələsini "Azərbaycan yazılı ədəbiyyatının ortaq başlanğıc mərhələsi (VII-X əsrlər)" adlandırır. Çoxəsrlik tarixi olan Azərbaycan yazılı ədəbiyyatının qədim tarixi, görkəmli yaradıcı simaları və böyük ənənələri olmaqla yanaşı, İsa Həbibbəyli bu fikirdədir ki, bununla belə, ədəbiyyatşünaslıq elmində Azərbaycan yazılı ədəbiyyatının konkret olaraq hansı vaxtdan başlaması haqqında yekdil fikir olmamışdır. Azərbaycan yazılı ədəbiyyatının tarixini müəyyən etmək məsələsində müxtəlif meyarlara istinad olunmuşdur. Həmin prinsiplər sırasında üç əsas prinsip: ortaq türk yazılı mətnlərinə istinad olunması, ana dilli milli ədəbiyyat faktoru və harada yaşamasından, hansı dildə yaranmasından asılı olmayaraq, milliyyət etibarilə azərbaycanlı olan qələm sahiblərinin əsərlərinin meydana çıxması əsas yer tutur.

*(Davamı var)*

***Gülxani PƏNAH***